AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 13/2

Bakı şəhəri 11 iyul 2018-ci il

AMEA Rəyasət Heyətinin nəzdində
Strateji Elmi Tədqiqatlar Mərkəzinin
yaradılması haqqında

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 07 dekabr 2016-cı il tarixli 15/4 nömrəli qərarı ilə AMEA-nın İşlər idarəsinin strukturunda 1, 2 və 3 nömrəli elmi tədqiqat laboratoriyaları, həmçinin Təcrübi-konstruktor işləri sektoru yaradılmışdır.

AMEA-nın aidiyyəti elmi müəssisələrinin mütəxəssisləri cəlb edilməklə yaradılmış strukturlar tərəfindən ötən dövr ərzində bir sıra strateji əhəmiyyət kəsb edən hərbi-mülki və müdafiə xarakterli layihələr icra edilməkdədir. Bu layihələrdən bəziləri tamamlanaraq seriyalı istehsala hazırlıq, bəziləri isə sınaq mərhələsindədir.

Layihələr çərçivəsində əldə olunmuş nailiyyətlər dövlətin aidiyyəti güc strukturları tərəfindən bəyənilmişdir.

Hal-hazırda bu sahədə aparılan strateji əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinin daha da inkişaf etdirilməsi və genişləndirilməsi məqsədilə AMEA Rəyasət Heyətinin nəzdində vahid mərkəzdən idarə olunan Strateji Elmi Tədqiqatlar Mərkəzinin yaradılmasına zərurət yaranmışdır.

Qeyd olunanları nəzərə alaraq Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA İşlər idarəsinin strukturundakı 1, 2 və 3 nömrəli elmi tədqiqat laboratoriyalarının, həmçinin Təcrübi-konstruktor sektorunun ştat vahidləri hesabına AMEA Rəyasət Heyətinin nəzdində Strateji Elmi Tədqiqatlar Mərkəzinin yaradılması məqsədəuyğun hesab edilsin.

2. AMEA İşlər idarəsinin müdiri, siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayevə tapşırılsın ki, qərarın icrasından irəli gələn məsələləri həll etsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev